# Azərbaycan Prezidenti bir daha Ermənistanı sülhə, dünya dövlətlərini isə qlobal problemlərin həllində həmrəyliyə dəvət etdi

**Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da yeganə səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir.**

Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Təbii ki, Azərbaycana bu statusu qazandıran İlham Əliyevin qlobal təşəbbüsləri və sözünə sadiqliyidir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

→ 4

# İlham Əliyevdən ədalət çağırışı

## Azərbaycan Prezidenti bir daha Ermənistanı sülhə, dünya dövlətlərini isə qlobal problemlərin həllində həmrəyliyə dəvət etdi




*Əvvəli 1-ci səh.*

### İqtisadi və siyasi müstəqilliyin yaratdığı reallıq

İyunun 20-də Çinin "China Media Group" Media Korporasiyasına müsahibəsində, iyulun 21-də Şuşada "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə yeni media" Qlobal Forumunda İlham Əliyev bir daha dünyaya ədalət çağırışı etdi. Prezident İkinci Qarabağ müharibəsində məğlubiyyətə uğrayan Ermənistanı bir daha sülhə, dünya dövlətlərini isə həmrəyliyə, qlobal problemlərin həllində mütəşəkkillik göstərməyə çağırdı.

49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsinin iştirak etdiyi I Şuşa Qlobal Media Forumunda Prezident xarici ölkələrin jurnalistlərinin müxtəlif səpkidə suallarına cavab verdi. Kifayət qədər aydın, konkret mesajlar verməklə regionun gələcəyi, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı məsələlərə toxundu, ölkəmizin qlobal layihələrin reallaşmasında ortaya qoyduğu mövqeyini və gələcək hədəflərini açıqladı.

Çinin nüfuzlu "China Media Group" Korporasiyasına müsahibəsində isə İlham Əliyev erməni lobbisinin güclü olduğu bəzi ölkələrin, təşkilatların Azərbaycana münasibətinə aydınlıq gətirərək qətiyyətli mövqeyini nümayiş etdirdi: "Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır".

İkinci Qarabağ müharibəsindəki böyük Zəfərdən sonra isə bəzi dairələrin Azərbaycanın Zəfərinə, postmüharibə dövründə əldə etdiyi nailiyyətlərə qısqanclıqla yanaşmağa başlaması da reallıqdır. Ancaq qətiyyətli Lider kimi İlham Əliyev bəyan edir ki, Azərbaycanla hədə-qorxu, təhdid dili ilə danışmaq qeyri-mümkündür. Azərbaycan iqtisadi və siyasi müstəqilliyini təmin etmiş dövlət kimi istənilən hücumu dəf etməyə, problemi çözməyə qadir ölkədir.

### Azərbaycan yalnız beynəlxalq hüququ, ədaləti müdafiə edir

Azərbaycan həm də humanizm prinsiplərinə əsaslanan siyasət yürütməklə dünyanı narahat edən qlobal problemlərin həllində daim aktivlik nümayiş etdirir. Buna misal kimi rəhbərlik etdiyi Qoşulmama Hərəkatındakı mövqeyini göstərmək olar. Belə ki, ölkəmizin təşkilata sədrliyinin qlobal pandemiya dövrünə təsadüf etməsinə baxmayaraq, çevik və səmərəli şəkildə öz sədrlik gündəliyini yeni reallığa uyğunlaşdıran İlham Əliyev təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi ilə ortaya nümunə qoydu. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, bu problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Məhz Azərbaycanın sədrliyi altında Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi. İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında təşkilatın pandemiya ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Azərbaycan Prezidenti BMT-nin Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla keçirildi. Eyni zamanda hərəkatın sədri kimi "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

"China Media Group" Media Korporasiyasına müsahibəsində İlham Əliyev "peyvənd millətçiliyi"nə toxunaraq bildirdi ki, həmin çətin dövrlərdə bəzi Qərb dövlətləri lazım olduğundan 5 dəfə artıq həcmdə peyvənd tədarük etdilər və bununla da peyvənd istehsal etməyən, buna çıxışı olmayan ölkələri vaksinasiyadan məhrum etdilər. Azərbaycan isə Qoşulmama Hərəkatının sədri olaraq peyvənd millətçiliyinə qarşı ictimai şəkildə mübarizə aparan ölkələrdən biri idi.

Qlobal forumda isə Prezident bu məsələni belə qiymətləndirdi: "Pandemiya zamanı biz dünya ictimaiyyətinin bu probleme diqqətinin cəlb olunmasında liderlik nümayiş etdirdik. Azərbaycan sədr kimi vaksin milliyyətçiliyinə qarşı fəal çıxış edən ölkələrdən biri olub. Biz heç kimdən çəkinməyərək, ölkələri öz adları ilə adlandırırdıq - onlar özlərinə lazım olduğundan beş dəfə artıq vaksin alırdılar, baxmayaraq ki, eyni zamanda bir çox yoxsul ölkələr müdafiə olunmamış qalırdılar. Yəni bu, digərləri ilə yanaşı, sadəcə olaraq, vicdansızlıqdır. Bizim təşəbbüsümüz ilə hərəkat ölkələrində məlumat bazası yaradılıb, bu bazadan Ümumdünya Səhiyyə Təşkilatı da istifadə edib. Bundan başqa, biz humanitar və maliyyə yardımı məqsədilə 10 milyon ABŞ dolları ayırmışıq və bir çox ölkələrə vaksinlərlə yardım etmişik. Yəni hərəkat ölkələri gördülər ki, bu struktur, təşkilat olmasa da, öz məqsədlərinə nail ola bilərlər".

Bütün bunların fonunda İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə qurumun nüfuzunun daha da yüksəlməsi və mütəşəkkilliyinin güclənməsi ilə bağlı faydalı işlər görəcək: "Bakıda keçirilən sammitdə sədrliyi qəbul edərkən mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti və üzv ölkələrin legitim maraqlarını müdafiə edəcəyik. Düşünürəm ki, biz bu məsələnin öhdəsindən uğurla gəldik. İnanmaq istəyirəm ki, biz sədrlik səlahiyyətlərini təhvil verəndən sonra müsbət dinamika davam edəcək. Hər halda biz bunun üçün əlimizdən gələni edəcəyik".

### 307 günə tamamlanan böyük infrastruktur layihəsi

Prezident həmçinin Azərbaycanın son illərdə beynəlxalq nəqliyyat qovşağına çevrilməsi prosesini də qiymətləndirərək Çinin "Bir kəmər, bir yol" layihəsinin reallaşmasında ölkəmizin fəal iştirakından söz açıb.

Bu bir həqiqətdir ki, Azərbaycanın yeni dünya düzənində formalaşan yol infrastrukturunun vacib halqasına çevrilməsi ölkəmizin həm siyasi, həm də iqtisadi nüfuzunu artırıb. Azərbaycan dünyanın yeni kommunikasiya xəritəsində vacib qovşağa çevrilib və "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin mühüm hissəsi olmaq imkanı yaranıb. Bu imkandan çox uğurlu və rasional istifadə etməyi bacaran dövlətimiz eyni zamanda öz ərazisində müasir yol infrastrukturu formalaşdıraraq, qlobal nəqliyyat şəbəkəsində vacib mövqeyə sahiblənib.

Dövrümüzün ən nəhəng logistikası hesab olunan və layihə dəyəri 3.8 trilyon dollar qiymətləndirilən "Bir kəmər, bir yol" layihəsində Azərbaycan da iştirakçıdır. Xüsusi qeyd edilməlidir ki, 307 günə ölkə ərazisində bu infrastruktur layihəsi tamamlanıb. Bu gün isə Azərbaycan Orta dəhlizin fəaliyyətinə böyük təkan verəcək Zəngəzur dəhlizini reallaşdırmaqdadır. Azərbaycan Zəngəzur dəhlizinin reallaşdırılması üçün öz üzərinə düşən tikinti işlərinin 70 faizə qədərini artıq tamamlayıb. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycanın tranzit potensialı daha da yüksələcək. Bu dəhliz "Bir kəmər, bir yol" layihəsinin əhəmiyyətli kommunikasiya hissəsinə çevriləcək. Azərbaycanın qlobal nəqliyyat şəbəkəsinin inkişafı istiqamətində atdığı addımlar dünyada iqtisadi əməkdaşlığın genişlənməsinə əlavə təkan və töhfə verəcək.

### Ermənistanın başqa çıxış yolu yoxdur

İkinci Qarabağ müharibəsindən öncə də, sonra da Ermənistana çıxış, qurtuluş yolu göstərən İlham Əliyev yenə də missiyasına sadiqliyini nümayiş etdirərək məğlub ölkəyə sülh təklif edib. Azərbaycan Prezidenti deyib ki, müharibədə qalib və məğlub tərəflərin olması labüddür və savaşdan sonra məğlub tərəf qalibin təkliflərini qəbul edərək sülh sazişinə imza atır. Beləliklə də, iki ölkə arasında yeni münasibətlər formalaşmağa başlayır. İndi isə Ermənistan məğlub tərəf kimi sülh sazişini imzalamamaq üçün müxtəlif bəhanələr uydurur və demək olar ki, siyasi şantajla məşğuldur.

İlham Əliyev həm I Şuşa Qlobal Media Forumunda, həm də "China Media Group" Media Korporasiyasına müsahibəsində bir daha humanist siyasətinə əsaslanaraq Ermənistanı sülhə dəvət etdi. Prezident bildirdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edir, Qarabağı Azərbaycanın hissəsi kimi tanıyırsa, bunu kağız üzərində də reallaşdırmalıdır: "Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir".

Əgər bu baş verərsə, Qafqazda real sülh yaranar, bütün kommunikasiyalar açılar və regionun hərtərəfli inkişafı başlayar. Əks təqdirdə bölgədə sülhün təminatı qeyri-mümkündür. Bunun acısını isə yenə də Ermənistan çəkəcək.

Göründüyü kimi, sözü imzası qədər keçərli olan İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı da qətiyyətli mövqe nümayiş etdirir. Onun qlobal təşəbbüsləri beynəlxalq miqyasda həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***